UOT 372.2.

***Azadə Məmmədaga qızı Əhmədova***
*Bakı şəhəri 11 nömrəli uşaq bağçasının müdiri*

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ PEDAQOJİ PROSESİN İDARƏ EDİLMƏSİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

***Азада Маммедага гызы Ахмедова***
*директор детского сада №11 гор.Баку*

# ЦЕЛИ И ЗАДАЧИ УПРАВЛЕНИЯ ПЕДАГОГИЧЕСКИМ ПРОЦЕССОМ В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ

***Azada Mammedaga Akhmedova***
*the director of kindergarten № 11 of Baku sity*

# THE GOALS AND OBJECTİVES OF THE MANAGEMENT OF THE PEDAGOGİCAL PROCESS İN PRESCHOOL EDUCATİON

**Xülasə.** Müəssisə rəhbərinə idarəetmədə qarşılıqlı hörmət üzərində qurulan, uğura inanan, uşaqlarla tərbiyəçilərin rahat, səmərəli təşkil edilmiş şəraitdə işləmələri, valideynlərin fəal iştirakının təmin edildiyi yeni yanaşmaları tətbiq etməsi lazımdır.

Təhsilin düzgün idarə edilməsi - təhsildə keyfiyyəti təmin etmək deməkdir. Keyfiyyətin təmin edilməsi isə rəhbərin kollektivdə sağlam mühit yarada bilməsindən, keyfiyyətin və kadrların idarəolunma prosesində inteqrasiyaya üstünlüyün verilməsindən çox asılıdır.

İdarəetmə funksiyalarında, idarəetmənin forma və məzmununda ziddiyyətlərin aşkara çıxarılması, vaxtında aradan qaldırılaraq ləğv edilməsi optimist idarəetməyə aparan yolun əsas tərkib hissəsi olmalıdır.

***Acar sözlər:*** *pedaqoji proses; pedaqoji prosesin məzmunu; səmərəli idarəetmə; keyfiyyətin idarə olunması; idarəetmənin strukturu; idarəetmənin əsas struktur prinsipləri; təhsil müəssisəsinin rəhbərlərinin idarəetmə mədəniyyəti.*

**Резюме.** Управление требует от руководителя применения методологий основанных на взаимном уважении, вере в успехе, создании приятной и продуктивной рабочей атмосферы для преподавателей и привлечении родителей к активному участию. Правильное управление означает обеспечение качества в обучении. Обеспечение качества же, в свою очередь, зависит от умения руководителя создать здоровую рабочую атмосферу в коллективе и использовании методов интеграции в управлении персоналом и качеством обучения. Выявление противоречий в функции управления, а также форме и их содержании, временная ликвидация является важным звеном в пути к оптимистичному управлению.

***Ключевые слова:*** *педагогический процесс, содержание педагогического процесса, рациональное управление, управление качеством, структура управления, основные структурные принципы управления, культура управления у руководителей образовательных учреждений.*

**Summary.** Institution manager requires the manager to apply new methodologies based on mutual respect, belief in success, creation of comfortable and productive work environment for tutors and environment encouraging parents for active participation.

Proper management of education means ensuring the high quality of education. The quality assurance in its turn depends on the ability of manager to create healthy work environment within the staff and use of integration methods both in quality and human resources management processes.

Finding of contraries in a function of management, and in a form and content of management, timely removal of it is a key part of a way leading to optimist management.

***Key words:*** *pedagogical process; content of pedagogical process; rational management; managemet of quality; structure of management; key structural principles of management; management culture of educational institutions' managers.*

Tədris-təlim prosesinin bütün mərhələlərində şəxsiyyətin maraq və ehtiyaclarını ödəyə bilən təhsil sisteminin yaradılması mühüm vəzifə kimi qarşıya qoyulur. Belə bir tələb isə, ilk növbədə, məktəbəqədər təhsildə təlimin məzmununun, ona uyğun metod, forma və vasitələrdən istifadə edərək strateji bir sistemin hazırlanmasını tələb edir və nəticədə məktəbəqədər təhsildə pedaqoji prosesin təşkili, məzmunu, başlıca vasitələri (oyun, əmək, təlim), metodları və səmərəli idarə olunması praktikada öz yerini müəyyənləşdirir. Bu isə məktəbəqədər təhsil müəssisələrində rəhbərin və tərbiyəçilərin pedaqoji prosesin səmərəli idarə olunmasına hazırlıq səviyyəsinin müəyyən edilməsi, öyrənilən problemin aktuallığını müəyyən etməyə imkan verir .

Təhsildə əsas dəyər uşaqdır. Məktəbəqədər təhsildə isə təkcə məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insanda bütün mənəvi dəyərlərin təməli qoyulur. Odur ki, məktəbəqədər təhsilin yeniləşdirilməsi XXI əsrin tələbləri və sosial sifariş nəzərə alınmaqla aparılır [1, 3].

Aparılan müşahidə və tədqiqatlar belə qənaətə gəlməyə əsas vermişdir ki, məktəbəqədər təhsilin qarşısında duran vəzifələr o zaman müvəffəqiyyətlə yerinə yetirilə bilir ki, pedaqoji proses yüksək səviyyədə təşkil edilə və səmərəli idarə oluna bilsin. Müəyyən edilmişdir ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin yüksək səviyyədə təşkili onun elmi-pedaqoji cəhətdən əsaslandırılmış planlı, sistemli, məqsədyönlü idarə olunmasından, ona rəhbərlikdən və nəzarətdən çox asılıdır. İdarəedənin və idarə olunanın pedaqoji prosesdə fəal və məqsədyönlü iştirakı bu prosesin səmərəli qurulmasına gətirib çıxarır.

Məktəbəqədər təhsil müəssisələrində idarəetmənin müasir sosial-iqtisadi şəraitə uyğun olmaqla, ölkədə təşəkkül tapmış yeni iqtisadi münasibətlər zəminində təkmilləşdirilməsinə, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin mütəmadi yeniləşməsinə ehtiyac vardır. Bu yeniləşmə pedaqoji prosesin tamlığını təmin edən elmi innovasiya axtarışları ilə və tam sistem kimi baxılan pedaqoji fəaliyyətlə bağlıdır. Məktəbəqədər müəssisələrdə pedaqoji prosesin bütövlükdə elmi əsaslar üzərində qurulması, onun bütün çətinliyinin dərk edilməsi, uşaq şəxsiyyətinin formalaşması kimi məsələyə diqqətin yönəldilməsi ən vacib vəzifələrdəndir. Məhz buna görə də məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunma effektivliyinin artırılması məktəbəqədər təhsil sisteminin yenidən qurulmasında əsas məsələ kimi meydana çıxır [1,2].

Araşdırmalar göstərir ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli təşkilinin keyfiyyəti idarəetmə fəaliyyətindən asılıdır. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasında müəyyən çatışmazlıqlarla əlaqədar bir sıra çətinliklər mövcuddur:

- pedaqoji prosesin idarə olunmasına dair nəzəri-metodiki işləmələrin və məktəbəqədər təhsil müəssisələrində səmərəli idarəetmə mexanizminə tələbatın kifayət qədər olmaması;
- idarəetmədə şablon hərəkətlərin, stereotipləşmiş fəaliyyətin mövcudluğu və məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesə yaradıcı yanaşma axtarışlarının vacibliyinin kifayət qədər əsaslandırılmaması;
- pedaqoji prosesin məzmununun yeniləşməsinin vacibliyinin və idarəetmə fəaliyyətinin qeyri-mütəşəkkil xarakterdə olması;
- rəhbərliyin idarəetmədə səriştəsizliyi və s.

Bu gün məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin yenidən qurulmasına iqtisadi, sosial-mədəni, normativ-hüquqi şərtlər kompleksi geniş imkanlar yaradır. Ona görə də məktəbəqədər təhsil müəssisələrinin idarə olunma sistemi çərçivəsində cəmiyyətdə baş verənləri özündə əks etdirən yeni sistemin formalaşdırılması zamanın tələbi kimi qiymətləndirilməlidir.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunmasının məqsədi uşağa öz imkan və bacarıqları baxımından tədris müstəvisində öz yerini tapmağa kömək etmək üçün şərait yaratmaqdır. İnnovativ rejimdə işləyən məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunması probleminin həlli, bütöv bir sistemin elementlərinin inteqrasiyasını təmin edən mexanizmin işlənib hazırlanmasını tələb edir [4].

İnnovasiya keyfiyyətcə təkmilləşdirilmiş pedaqoji prosesdə vəhdət halında götürülmüş ideyalar, proseslər, yeni texnologiyalar, metodlar, vasitələr, əldə olunmuş nəticələrdir.

Bütün tədris-təlim işi uşaqların maraq və tələbatlarının ödənilməsinə, onların potensial imkanlarının inkişafına yönəldilir;

- inkişafyönlülük. Uşağın idrak fəallığı izlənilir, bilik, bacarıq və vərdişlərin inkişaf səviyyəsi tənzimlənir;

- fəaliyyətin stimullaşdırılması. Pedaqoji prosesin səmərəli və effektiv qurulması, uşaqların təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarilə uşaqların daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;

- dəstəkləyici mühitin yaradılması. Pedaqoji prosesin müasir maddi-texniki baza və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz şərait yaradır.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji proses geniş bir sahəni əhatə etdiyindən, prosesə elmi əsaslara söykənən idarəetmə sisteminin tətbiqini aktuallaşdırır. Pedaqoji prosesin düzgün təşkili uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsini, onların məktəb təliminə hazırlanmasını təmin edir.

Müasir dünya həyatın bütün sahələrində, o cümlədən, təhsildə də baş verən dəyişikliklərlə doludur. Bu dəyişikliklərin nəzərə alınması təhsilalanlarda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə tez bir zamanda özünü tənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri üzə çıxarmaq üçün vacibdir. Ona görə də istənilən məktəbəqədər təhsil müəssisəsi sosial dəyişikliklərdən asılı olmadan, inkişafa uyğun analitik müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə doğru istiqamətlənməlidir. Belə xüsusiyyətlərə malik şəxsiyyət yalnız yaradıcı təhsil mühiti və yenilikçi pedaqoqun iştirakı ilə formalaşa bilər. Bunları nəzərə alaraq cəmiyyət innovasiya hərəkatını yaradıcılığın yüksək səviyyəsi kimi dəstəkləməyə daha da çox meyl etməlidir.

MTM-də Pedaqoji proses yaradıcı xarakter daşıyır. Hər bir pedaqoq pedaqoji problemləri vəzifələrə ayırır və onun həlli üsullarının seçilməsi üçün qərarlar qəbul edir. Bu qərarların qəbul edilməsinə aşağıda göstərilənlər təsir edir:

- Tərbiyəçinin pedaqoji gerçəkliyin mahiyyəti haqqında biliyi;
- Pedaqoji nəzəriyyə və konsepsiya, həmçinin yeni pedaqoji vəzifələr və onların həlli üsulları haqqında biliyi;
- İnsan psixologiyası, onun psixoloji xüsusiyyətləri və inkişaf etdirilməsi yolları;
- Pedaqoji təcrübə;
- Tərbiyəçinin mövqeyi və məqsədi;
- Pedaqoji intuisiya.

Tərbiyəçinin fəaliyyətində peşəkar səriştəliliklə yaradıcılıq arasında qarşılıqlı əlaqə mövcuddur. Səriştəlilik nə qədər yüksək olarsa, yaradıcılıq o qədər aydın özünü göstərir. Pedaqoji yaradıcılıq o zaman effektli olur ki, o, yüksək pedaqoji kompetentliyə əsaslansın.[5,6]

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili zamanı təlim işi elə qurulmalıdır ki, təlim prosesi daha çox uşaqların fəallığına yönəlsin. Tanınmış rus pedaqoqu U.K. Uşinski öz tədqiqatlarında bu məsələyə toxunaraq yazır ki, təlimdə hər şey maraqlı ola bilməz. Maraqsız şeylər var və olmalıdır. Uşağa təkcə maraqlı olan şeyləri deyil, maraqsız olan şeyləri də öyrətmək lazımdır. Siz uşağı həyata hazırlayırsınız, həyatda isə hər bir şəxs üçün hər şey maraqlı ola bilməz. Ümumiyyətlə, pedaqoji proses elə qurulmalıdır ki, uşaq tərbiyəvi təsirin obyekti deyil, subyekti olsun, hərtərəfli fəaliyyət prosesində şəxsiyyət kimi formalaşa bilsin [7].

Son illərdə məktəbəqədər təhsil sistemində aparılan islahatlar, təhsilin məzmununun təkmilləşdirilməsini, yeni təlim texnologiyalarının, yeni yanaşmaların tətbiqini zəruri edir. İnteraktiv təlim metodlarından istifadə təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Təlim prosesinin keyfiyyətinin yüksəldilməsi məqsədilə uşaqlara daha çox müstəqillik verilməli, öz fikirlərini sərbəst, çəkinmədən söyləməyə, arzu və istəklərinin reallaşdırılması üçün şərait yaradılmalıdır .

Respublikamızı inkişaf edən ölkələr səviyyəsinə qaldırmaq üçün dövlətin gələcək qurucuları olan gənc nəsli əqli cəhətdən yetkin, geniş elmi biliklərə və hərtərəfli dünyagörüşünə malik, hadisələri düzgün dərk etməyi, bu hadisələrin axarını səmərəli istiqamətə yönəltməyi, lazım gəldikdə müstəqil qərarlar qəbul etməyi bacaran şəxsiyyət, yaradıcı təfəkkürə malik vətəndaş kimi yetişdirmək tələb olunur. Belə şəxsiyyətin formalaşdırılmasının əsası məktəbəqədər təhsil müəssisələrində qoyulur. Təlim prosesində demokratik dünyagörüşə malik şəxsiyyət for-

malaşdırmaqda geniş imkanları olan fəal təlim metodlarından istifadə təlimdə müsbət nəticələr əldə etməyə imkan verir. Təlim texnologiyası müasir şəraitdə təhsil sisteminin ən aktual problemlərindən olub, keyfiyyətli tədris prosesinin qurulmasında, kamil insanın, rəqabətə davamlı şəxsiyyətin hazırlanmasında həlledici rol oynayır və qloballaşan dünyanın əsas tələbi kimi qiymətləndirilir. [6]

Təlim texnologiyaları tədris-təlim prosesinin təşkilinin konkret üsullarının müəyyənləşdirilməsinə imkan verir. Təlim texnologiyaları təhsilin keyfiyyəti və əlverişliliyi ilə birbaşa bağlıdır. Təhsilin yeni təlim texnologiyaları əsasında qurulmasında təşkilatçılıq, istiqamətvericilik vəzifələrini öz üzərinə götürən öyrədən əsas fəallığı öyrənənlərə verir.

Məktəbəqədər yaşlı uşaqlarla məşğələlərin təşkili uşaqların subyektiv təcrübələrinin genişləndirilməsinə istiqamətləndirilmiş inkişafetdirici tapşırıqların həyata keçirilməsinə xidmət edir. Verilən tapşırıqlar elə təşkil edilir ki, uşaqlar ətraf aləmin müxtəlif sahələri haqqında məlumat alma imkanı əldə edə bilsinlər. İnkişafetdirici tapşırıqlar da öz növbəsində elə müəyyənləşdirilir ki, onlar uşağın inkişafına istiqamətlənsin. Bunlar düzgün təşkil edilmiş pedaqoji prosesə daha səmərəli təsir göstərir .

Fəal təlim, uşaqların fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Fəal təlim tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Belə təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir:

- Müəllim tərəfindən şüurlu surətdə idrakı problem situasiyanın yaradılması;
- Problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- Uşaqlar üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim uşaqların yaddaşının təkcə yeni biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib [5].

Məktəbəqədər təhsil müəssisəsində pedaqoji prosesin səmərəli idarə olunmasının əsas prinsiplərindən biri də fərdi yanaşma, onun forma və məzmununun diferensasiyasıdır. Deməli, pedaqoji prosesin məntiqi cəhətdən əsaslandırılması, formanın məzmuna uyğunluğu, həll edilən problemə uyğun məzmunun müəyyən edilməsi nəzərdə tutulmalı, prosesin peşəkar idarə olunmasında şəraitin, dəyərlərin oriyentasiyası, tərbiyəçinin təcrübəsi və peşəkarlıq səviyyəsi, həmçinin tərbiyəçilərin motivasiya ilə bağlı xüsusiyyətləri nəzərə alınmalıdır.

Tədris-təlim prosesinin layihələndirilməsinin mərkəzi həlqəsi layihə olub, öyrənənlər üçün vacib əhəmiyyət kəsb edir və problemin həllində həyati əhəmiyyətə malikdir. Layihələr müxtəlif oyun formalarında həyata keçirildikdə, uşaqlar yaradıcı və praktik əhəmiyyətli fəaliyyət prosesinə daxil edilirlər. Bu kimi tədris-təlim prosesinin müxtəlif metodlarının təşkili nəinki tərbiyəçilərin səriştəliliyini yüksəldir, hətta onları fəaliyyətin daha yeni metod və vasitələrindən istifadə etməyə cəlb edir, təlim prosesini daha məhsuldar, daha məqsədyönlü və maraqlı edir. Bunlar tərbiyəçilərin səmərəli fəaliyyətinə, başlıcası isə özünüinkişafa və müasir yanaşmaların tətbiqinə yönəlmiş işin keyfiyyətinin yüksəldilməsinə imkan verir .

XIX əsrin görkəmli simalarından olan T. Sidqi müəllimin məktəb həyatında roluna yüksək qiymət verərək demişdir: ”Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir”. O, müəllimin həlledici rolunu qiymətləndirməklə bərabər, onlardan “ülüm və fünuna dara və adabi elm və tərbiyə sahibi-vüquf” olmalarını da tələb edirdi. Yəni böyük mütəfəkkir T. Sidqi istəyirdi ki, müəllim hərtərəfli elmi biliklərə və yüksək pedaqoji ustalığa malik olsun [8, səh. 69].

Məktəbəqədər təhsil müəssisələrindəki tərbiyəçilərin hazırlığı, dünyagörüşü, qabiliyyət və imkanları eyni biçimli deyil. Hər bir tərbiyəçi professional bacarığa malik olmalıdır.

Məktəbəqədər təhsil müəssisələrində metodik işin inkişaf nəticələrinin ölçülməsiüçün qiymətləndirmə meyarlarının qabaqcadan müəyyən edilməsi vacibdir. Meyarlar müxtəlif ola bilər, amma həmişə daha ümumilərini nəzərdə saxlamaq lazımdır. Metodik iş uşaqların inkişaf nəticələrini yüksəldərsə və uşaqda müəyyən inkişaf səviyyəsinə çatmaq və ya ona yaxınlaş-

maq təşəbbüsü artarsa, bu nailiyyət metodik işin nəticəsinin birinci meyarı hesab edilməlidir. İkinci meyar metodik işin stimullaşdırıcı rolu, kollektivdə psixoloji mikroiqlimin yaxşılaşması tərbiyəçinin məmnunluğunun, yaradıcı fəallığının artması ilə müşahidə olunmalıdır. Ona görə də metodik işin səmərəliliyinin həqiqi qiyməti keçirilmiş müxtəlif tədbirlərin sayına görə deyil, son nəticəyə görə verilməlidir. Məktəbəqədər təhsil müəssisələrində metodik işin təkmilləşdirilməsi problemi hazırda öz aktuallığını saxlamaqdadır. Məktəbəqədər təhsil müəssisələrində metodik işin keyfiyyətinin aşağı olması təhsil müəssisəsinin son nəticələrinin zəif olmasına gətirib çıxarır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlarla aparılan təlim-tərbiyə işlərinin planlaşdırılmasına verilən tələblər səciyyələndirərək bildirilir ki, planlaşdırma uşaqlarla aparılan işin ideya istiqamətini müəyyənləşdirməli, təlim-tərbiyə işləri uşaqların yaş səviyyəsinə uyğun olaraq Azərbaycan dövlətinin daxili və xarici siyasətinin məzmununu özündə əks etdirməlidir. Planda, ilk növbədə, uşaqların əxlaqi cəhətdən formalaşdırılması nəzərdə tutulmalı, onun fəallığı, müstəqilliyi təmin edilməli, vətənpərvərlik, milli müstəqillik, humanizm və s. hisslərin tərbiyəsinə xüsusi yer verilməli, milli ənənələr real ictimai həyatla əlaqələndirilməlidir. Planlaşdırma pedaqoji prosesin təşkilini tam əhatə etməlidir. Planlaşdırma zamanı tərbiyə və təlim işlərinin məzmunu, uşaq fəaliyyətinin təşkili formaları, onlara rəhbərlik, prosesin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır [3].

Məktəbəqədər təhsil müəssisələrində metodik işin təşkilatçıları baş tərbiyəçilərdir. Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri ilə birlikdə baş tərbiyəçilər də pedaqoji prosesin təşkilinə və idarə olunmasına rəhbərlik edir.

Pedaqoji prosesin idarə olunmasında rəhbərin, mənəvi və şəxsi keyfiyyətlərindən əlavə təşkilati, hüquqi, psixoloji, sosioloji, etik, dünya təhsil təcrübəsi və onun inkişaf istiqamətlərinin prioritetləri, informasiya-kommunikasiya texnologiyalarından istifadə, eləcə də bir çox digər istiqamətlərdə geniş bilik, bacarıq və vərdişlərə malik olmaları çox əhəmiyyətlidir.

**Problemin aktuallığı**. Məktəbəqədər yaşlı uşaqların təlim prosesinin yenidən qurulması və təhsilin təkmilləşdirilməsinə obyektiv tələbat məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunması işinin təşkilini, bu işin əhəmiyyətinin yüksəldilməsini, bu problemin elmi təhlilinin aparılmasını və praktiki təkmilləşdirilməsini zəruri edir. Ona görə də məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarə olunmasının real vəziyyəti onun durumunu müəyyənləşdirən ən mühüm meyarlardan biri hesab edilir.

**Problemin elmi yeniliyi**. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə edilməsinin yeniləşdirilməsində məqsəd və vəzifələr hərtərəfli təhlil edilmiş, idarəetmənin yenidən qurulması yolları araşdırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Məqalədə göstərilən məsələlər, məktəbəqədər təhsil müəssisələrində aparılan pedaqoji prosesə yeni forma və metodların tətbiqində böyük əhəmiyyət kəsb edir

.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş). ARTPİ, 2014.
2. Azərbaycan Respublikasında Məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı (2007-2010-cu illər). “Azərbaycan müəllimi” qəz., Bakı, 13 aprel, 2007-ci il
3. Cəfərova L.K, Əhmədova A.M. Uşaq bağçası müdirinin stolüstü kitabı. Bakı: Apastrof, 2011.
4. Kərimov Y.Ş. Pedaqoji tətqiqat metodları. Bakı: Azərnəşr, 2009.
5. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
6. Mehrabov A.O. Təhsilin fundamentallığı: şəxsiyyət və nəticəyönlü təhsilin qurulmasına doğru // Azərbaycan məktəbi, 2006, № 4
7. Ушинский К.Д. Педагогические сочинения, том 4, М,,1989.
8. Mollayev İ.A. MəhəmmədT. S. Pedaqojigörüşləri. Bakı: Maarif, 1996.


**E-mail**:azada.ahmadova123@gmail.com

**Rəyçi**: *ped.ü.f.ls.dok.* L.K. Cəfərova
**Redaksiyaya daxil olub:** 20.10.2018